# Düşüncələr nəzmin dili ilə

## Xocalı faciəsi

Xalqımın qan yaddaşı,
Xocalı faciəsi.
Ağladır torpaq-daşı,
Xocalı faciəsi.
Ana deyib uşaqlar,
İndi kimi qucaqlar?
Söndürülmüş ocaqlar,
Xocalı faciəsi.
Məgər arxa, dayaqlar,
Dostu belə ayaqlar?
Donmuş əllər, ayaqlar
Xocalı faciəsi.
Kaman ağlar, ney sızlar
Ürək dərddən hey sızlar.
İsmətsiz qalmış qızlar,
Xocalı faciəsi.
Günahkarı, cəlladı
Kim axtarıb, aradı?
Sağalmaz bir yaradı,
Xocalı faciəsi.
Tarçı köklə tarımı,
Qoy oxşayım yarımı...
Bir xalqın soyqırımı,
Xocalı faciəsi.
Görən bu qanlı dərsi,
Boğmaz içində səsi.
Bir əsrin faciəsi
Xocalı faciəsi.
Xeyir şərlə üz-üzə,
Bax gecəylə gündüzə.
Tarixi dərsdir bizə,
Xocalı faciəsi.
Ey böyük Türk övladı,
Yaxşı tanı dost-yadı.
Tarixdə bir qaradı,
Xocalı faciəsi.
Ey unutqan Azərsoy,
Olsa da yüz nişan, toy
Düşündürsün səni qoy,
Xocalı faciəsi.
De sən də hər gün Cəlil,
Xocalıya ağı, dil.
Cöynədəcək neçə il,
Xocalı faciəsi.

**Cəlil XEYİRBƏY.**

## Xarı bülbül

Bahardır, açılmış tər çiçəklərin,
Bəzəyi olmusan şux çəmənlərin,
Məlhəmi olmusan neçə dərdlərin,
Dərdimiz azalıb bil Xarıbülbül.
Sinənə çox dəydi namərd gülləsi,
Bülbülün fəryadı ahı-naləsi,
Dərə bilməz səni, inan özgəsi,
Əlləri qırılar bil, Xarıbülbül.
Şuşanın dağları yaman qocalmış,
Havası dəyişmiş, suyu bulanmış,
Qoca qartalın da baxışı qalmış,
Baxışı süzgündür bil, Xarıbülbül.
Yolumuz açıqdır, gələ bilərik,
Sənə sevgimizi verə bilərik,
Bir yerdə sevinib gülə bilərik
Xankəndini deyər dil Xarıbülbül.
Ayağımız heç vaxt dəyməsin daşa,
Bizimlə bərabər bir dövran yaşa,
Çiçəyə bürünsün yaz başdan-başa.
Qəm-qüssə görməyək biz Xarıbülbül.
Zenfira gələcək gələn baharda,
Yolunu kəsməsin boran da, qar da.
Hər keçən bir ayda, hər bir saatda,
Həsrət ilə baxar, bil Xarıbülbül.

**Zenfira CƏFƏROVA,**

## Dünyadir

Yenə yada düşdün gülüm gör necə,
Titrədi ürəyim, əsdi gizlicə,
Dəyişdin bir anda, dəyişdin necə?
Haramın-halala, qatan dünyadır.
Dünya beş günlükdür gəl etmə belə,
Ağ dəni salmısan o siyah telə,
Bənzətdin göz yaşım kükrəyən selə,
Halalın-harama, atan dünyadır.
Bilirsən, bu dünyam səninlə gülür,
Sənə inanıram, el-aləm bilir,
Hamı gözlərimin yaşını silir,
Halalı-harama, satan dünyadır.
Rəna, gəl inanma kimsə sözünə,
İnsan kül üfürür, insan gözünə,
Dünya yalan dünya, inan özünə,
Haramı-halala çatan dünyadır.

**RƏNA AZAKLI, (Qəbələli).**

## Nə yaxşı deyək...

Həyat sonsuz,dünya fani,
" Kaş ki"lərə köklənməyək.
" Kaş ki" deyib bu həyatda,
Üç nöqtəyə söykənməyək!
Ümidsizlik yaşatmaz ki,
" Kaş ki" lərlə yaşayarsaq-
Qəlb niyyətə heç çatmaz ki ..
" Nə yaxşı ki..."
Amal kimi deviz seçsək,
Arzular da,niyyətlər də
Olar gerçək.
Nikbinliyin işığıyla,
Həyat,ömür yol gedəcək!

**BİBİXANIM.**

## Azərbaycan ordusu

Qələbə nəfəslisən,
Qəhrəmanlar nəslisən,
Zəfərin müjdəsisən,
Azərbaycan ordusu..
Sən də qürurlan Vətən,
Bir şanlı əsgərinəm,
Bizi qorxutmaz düşmən,
Azərbaycan ordusu!
Şairlərin sözüsən,
Qəhrəmanın izisən,
Orduların gözüsən,
Azərbaycan ordusu!
Zirvələrin qayası,
Qəhrəmanlıq mayası,
Haqq-ədalət carçısı,
Azərbaycan ordusu!
Başımızı dik tutar,
Arzu-kamına çatar,
Bayrağımı ucaldar,
Azərbaycan ordusu!
Şairlərin səsisən,
Qələbə həvəsisən,
Elmiranın vəsfisən,
Azərbaycan ordusu!

***Elmira ABDURAHMANQIZI.***

## Üç rəngli al bayrağım

Al günəşdən nur alıb,
Ucalıb, dalğalanıb,
Bu dünyaya səs salıb,
Bayraq "şahım", novrağım,
Üç rəngli al bayrağım.

Şəhidlərin qanıyla,
Qazilərin canıyla,
İgidlik, ad-sanıyla,
Dünyada xoş sorağım,
Üç rəngli al bayrağım.

Azərbaycan xalqının,
Daima and yerisən.
Dastanımsan,şerimsən,
Vüqarım, üz ağlığım,
Üç rəngli al bayrağım!

Köçkün adı silindi,
Bir millət tək birləşdik,
Yurdumuza yerləşdik,
Bayraq "şahım", novrağım,
Üç rəngli al bayrağım!

Dalğasında çağlaram,
Köksüm üstə saxlaram,
Sevincimdən ağlaram...
Dalğalan,can bayrağım,
Səltənətim, novrağım,
Üç rəngli al bayrağım!

**Bahar AĞABƏYQIZI.**



## Qəbələm

Yazda çiçəyinə, yayda barına,
Payızda saralan yarpaqlarına,
Qışda soyuğuna, bəyaz qarına,
Hər fəsil heyranam sənə, Qəbələm.
Gözəllik görürəm, baxsam hayana,
Sorağın yayılıb cümlə-cahana,
Sən ki bir bəzəksən Azərbaycana,
Səninlə başlaram günə, Qəbələm.
Qədim bir tarixin, keçmişin vardır,
Oxuyan bülbüldür, çalınan tardır,
Qoynunda yaşayan nə bəxtiyardır,
Hər zaman əzizsən mənə, Qəbələm.
Yazılıb hüsnünə şeirlər, sözlər,
Səninlə sevinir, gülür bu gözlər,
Qürbətdə olanda qəlb səni özlər,
Bürünür dumana, çənə, Qəbələm.
Duyuram ətrini harada olsam,
Qəlbim qan ağlayar, mən sənsiz qalsam,
Nə zaman düşünüb mən səni ansam
Ruhuma qidadasan yenə, Qəbələm.

***Şəbnəm ZALOVA.***

## Ürəyə görə

Kiminin ağlını çəkir başından.
Çıxmır düz-əməlli fikir başından.
Dövləti qar kimi tökür başından,
Heyf ki, yağdırmır ələyə görə.
Dünyanın ən paxıl insanı öndə.
Xəstəni öldürən loğmanı öndə.
Mələklər geridə, şeytanı öndə,
Fırlatmır dünyanı mələyə görə.
Lal olur kimin ki, dili düzdüsə.
Gətirmir qazancı, əli düzdüsə.
Vuracaq belindən beli düzdüsə,
Yaratmır xəncəri kürəyə görə.
Doğruya verəndə ahu-zar verir.
Yaşamın əzabda, birtəhər verir.
Alçağın bağına bar-bəhər verir
Heyf ki, verməyir ürəyə görə.
Söz ilə insanı əzən irəli.
Yüksəkdən aşağı süzən irəli.
Kabinet-kabinet gəzən irəli,
Var verir qısalan ətəyə görə.
Aynuram, dünyadan küsürəm bəzən.
Neynim,yaşamaqdan bezirəm bəzən.
Kükrəyib coşuram, sevirəm bəzən.
Bağlayır qapısın küləyə görə.

**Aynur DƏRYA.**

## Xocalımın yarası

Məzarın torpaq oldu,
Gülü çiçəyi soldu,
Ürəklər dərdlə doldu,
Tapılmadı çarası,
Xocalımın yarası.
Taladılar, soydular,
Xalqıma od vurdular
Yurdu viran qoydular,
Açılmayır laləsi,
Xocalımın yarası.
Vətən müharibəsi,
Aləmə saldı səsi,
Qutarmayan bu bəhsi,
Yetim qalan balası,
Xocalımın yarası.
İllər ötüb keçsə də,
Nəsillər köç etsə də,
Zaman haqqı seçsə də,
Kağızlarda çarası,
Xocalımın yarası.
İtkinindən yox soraq,
Qaraldı yurdda çıraq,
Görəm asıldı bayraq?
Ellər onu sorası,
Xocalımın yarası.
Xankəndi tək Xocalı,
Qaldı sinəsi dağlı,
Yolumuz sənə bağlı,
Üzümüzün qarası,
Xocalımın yarası.
Dərmansız oldu dərdin,
Qəhrəman oldu mərdin,
Dərd qoynunda əridin,
Dağ vüqarlı qalası,
Gəlmir nədən sədası?
Xocalımın yarası.

**Şəhla XƏLİLQIZI.**

## Lütfizadə

***Azərbaycanın paytaxtı Bakıda doğulub, 96 yaşında Amerikada vəfat etmiş Kaliforniya Universitetinin professoru, akademik, dünya şöhrətli alim Lütfizadənin, (Lütfi Rəhim oğlu Ələsgərzadə) əziz xatirəsinə ithaf edirəm.***

Azərbaycan oğlusan - elmin Günəşi, Ayı
Tanrı sənə bəxş edib, sonsuz istedad payı.
Kəşflərinin həddi yox, uğurlarının sayi,
Elmə töhfələr verdin, sən hamıdan ziyadə,
Ay yurdun yurddan uzaq, alimi Lütfizadə!
"Qeyri səlis məntiq"in hamını mat edibdi,
Kəşfin ağır zəhməti, tamam it-bat edibdi,
İxtiralar həyatı, xalqı rahat edibdi.
Texnikan işi görür, el yaşayır azadə,
Ay yurdun yurddan uzaq, alimi Lütfizadə!
Hörmətini qazandın, elminlə doğma-yadın
Dillərdə əzbər oldu, o böyük alim adın,
Vətəndən uzaq oldun, torpağı unutmadın .
Vəsiyyətinlə gəldin, sonsuz yurda fəzadə,
Yat Vətən torpağında, əbədi, Lütfizadə!

**Əhməd MƏMMƏDLİ,**
**Qəbələ rayonu, Nic qəsəbəsi, müəllim.**

## Qəhrəmandan danışaq

***(Qəhrəman şəhid Amid Rəbbil oğlu Heydərova (Lerik rayonu) ithafən)***

Oğullar var Vətən üçün odlanar,
Oğullar var döyüşlərdə sınanar,
Oğul da var qəhrəman tarix yazar,
Amid kimi oğullardan danışaq.
O Lerikin şöhrətidir, şanıdı,
Qorxu bilməz igid bir aslanıdı,
Amid xalqın igid qəhrəmanıdı,
Belə igid oğullardan danışaq.
O, Rəbbil dayının vuran ürəyi,
Yarımçıq qalıbdır arzu diləyi,
Kaş ki kor olardı düşmən gözləri...
Amid kimi oğullardan danışaq.
Od ələrdi düşmənlərin başına,
Baxmayın siz onun cavan yaşına,
Düşmənləri pul qoymuşdu başına,
Amid kimi oğullardan danışaq.
Döyüşlərdə çox zəfərlər çalmışdı,
O, polkovnik rütbəsi də almışdı,
İgidliyi ellərə səs salmışdı,
Amid kimi qəhramandan danışaq,

**Sədaqət OĞUZLU.**

## Vətən igidləri

Ey Vətəni anadan müqəddəs, əziz bilən,
Düşməni öz yerində oturdu hər bir güllən,
Güllən ilə bərabər, düşməni yaxdı sillən,
Ana Vətən yolunda, qurban gedən igidlər.
Vətən, el eşqi ilə düşmənlə vuruşanlar,
Oldu Vətən göyündə ulduztək sayrışanlar,
Ey hünər meydanında hünərlə yarışanlar,
Ana Vətən yolunda, qurban gedən igidlər.
Yurd-yuvanı sevməyi düşmənə andırdınız,
Azadlıq məşəlini əbədi yandırdınız,
Qarabağı alaraq zəfər marşı çaldınız,
Ana Vətən yolunda, qurban gedən igidlər.
Könüllərdə əbədi xatirəyə döndünüz,
Siz əbədiyaşarsız, demirik ki, öldünüz,
Vətənə igid kimi borcunuzu verdiniz,
Ana Vətən yolunda, qurban gedən igidlər.
Şərəfli şəhid kimi ucaldınız eldə siz,
Hörmətlə anılırsız hər ocaqda, evdə siz,
Mənsurəyəm, deyirəm nəğmədə siz, şeirdə siz,
İzinizi saldınız siz tarixə igidlər,
Ana Vətən yolunda, qurban gedən şəhidlər.

**Mənsurə QƏBƏLƏLİ.**